# "Ümumi tarix" dərslərində formativ qiymətləndirmədən istifadə şagirdlərin təlim fəaliyyətini stimullaşdıran vasitə kimi (X sinif materialları əsasında)

**Günel Rza qızı Mərdanova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** gunelmerdanova1999@gmail.com

**Rəyçilər:** p.ü.f.d. T.M. İsayeva,
p.ü.f.d. D.M. Musayev

**Açar sözlər:** formativ qiymətləndirmə, müəllim, şagird, refleksiya, öyrənməyi öyrənmək
**Ключевое слова:** формативное оценивание, учитель, ученик рефлексия, учиться учиться
**Key words:** formative assessment, teacher, pupil, reflecsion, learn to leran

*"Biz bu gün də, gələcəkdə də gənclərimizi təhsilə, biliyə cəlb etməliyk, təhsilin keyfiyyətini artırmalıyıq, təhsil sahəsini daha da mükəmməlləşdirməliyik"*

***Heydər Əliyev***

Təlim prosesində biliklərin fəaliyyətə çevrilməsi qiymətləndirmə ilə nəticələnir. Yeni kurikulum konsepsiyasına görə, qiymətləndirmə təhsilalanların bilik və bacarıqlara yiyələnməsi, onlardan istifadə etmək imkanları haqqında məlumatların toplanması prosesidir. Qiymətləndirmə bir çox fərqli məqsədlərə xidmət edir. Ümumiyyətlə, qiymətləndirmə prosesi bütün sahələrdə çox vacib addımdır. Xüsusən də təhsil sahəsində. O, şagirdlərin nailiyyətləri, bilik fəaliyyətlər barədə düzgün istiqamət verə, onların inkişafını davamlı şəkildə izləməyə imkan verir. Həmdə bundan əlavə müəllim də öz fəaliyyətini təhlil edərək dərsin effektivliyini təmin etməli, təlimin məqsədlərini düzgün müəyyənləşdirməlidir. Günümüzdə biz qiymətləndirmə ilə bağlı bir sıra problemlərlə qarşılaşırıq. Belə ki, təlim prosesində şagird də, valideyn də əsasən alınan qiymətə köklənir. Şagird evə daxil olan kimi valideyn bu gün neçə qiymət aldığını soruşur. Bu bir növ şagirdlərin psixologiyasına təsir edir. Bizə şagirdin neçə qiymət alması deyil, onun bilik və bacarığının hansı səviyyədə olması maraqlı olmalıdır.

Yeni qiymətləndirmə sisteminin hazırlanması Təhsil Sektorunun İnkişafı layihəsində prioritet istiqamətlərdən biri kimi müəyyən olunmuşdur. Təlim və tədris prosesinin təkmilləşdirilməsi, ölkə üzrə şagirdlərin nailiyyətləri barədə obyektiv məlumatların əldə edilməsi, habelə dövlət təhsil standartlarının monitorinqinin həyata keçirilməsi üçün müasir qiymətləndirmə mexanizmlərinin yaradılması mühüm vəzifə kimi irəli sürülür. Təhsilin keyfiyyətinin müəyyənləşdirilməsində əsas göstərici şagirdin təlim nəticələri olduğundan, həmin nəticələrin obyektiv qiymətləndirilməsi də keyfiyyəti üzə çıxaran ən etibarlı mənbə hesab olunur (1).

Şagird nailiyyətlərinin qiymətəndirilməsinin standartlar əsasında qurulması onun daha obyektiv olduğunu göstərir. Bununla müəllim və şagirdlər onların qarşısına qoyulan tələbləri qabaqcadan aydın görür və ona nail olmağa çalışır.

Tədqiqatçılar ABŞ-dakı tədrisi Yaponiya və Asiyanın başqa ölkələrindəki tədrislə müqayisə etmişdilər. Asiya müəllimlərinin tədrirsi daha effektli idi. Tədqiqatçılar belə nəticəyə gəldilər ki, bunun əsas səbəbi Qərb müəllimlərinin qabiliyyət və bacarığa, Asiya müəllimlərinin isə səy və əzmkarlığa önəm verməsi olub. Təklif edilən digər səbəb Asiya müəllimlərinə sinifdən

kənarda hazırlıq üçün daha çox vaxt ayırmağa icazə verilməsi idi.

Formativ qiymətləndirmənin əsas mənası "öyrənmək üçün qiymətləndirmə", summativ qiymətləndirmə isə "öyrənmənin qiymətləndirilməsi"dir kimi izah oluna bilər (2).

Bu fikirlərdən aydın olur ki, formativ qiymətləndirmə summativ qiymətləndirmədən fərqli olaraq təlimin son nəticəsini yaxud nailiyyəti ölçmür, o, təlim zamanı şagirdin öyrənmə prosesinin necə irəlilədiyini, baş verən dəyişiklikləri müəyyən edir. Formativ qiymətləndirmə şagirdin nailiyyətlərinin əsas səbəblərini müəyyən edir. Sinif otaqlarında formativ qiymətləndirmə yanaşma və üsullarından istifadə edən müəllimlər şagird nailiyyətlərinin səviyyəsini yüksəltmək və şagird nəticələrinin daha ədalətli olmasına nail olmaq üçün tədrisin diferensiallaşdırılması yolu ilə onların müxtəlif ehtiyaclarını ödəməyə daha yaxşı hazırlaşır.

Təhsil sistemlərində formativ qiymətləndirmənin daha ardıcıl istifadəsi maraqlı tərəflərə, onun siniflərdə daha geniş tətbiq edilməsinə, maneələrin aradan qaldırılmasına kömək edə bilər. Bu sahədə aparılmış kəmiyyət və keyfiyyət tədqiqatları göstərdi ki, formativ qiymətləndirmə bəlkə də indiyə qədər öyrənilmiş yüksək performansı təşviq etmək üçün ən vacib müdaxilələrdən biri olmuşdur. "Dərs deməyi sevən müəllimlər uşaqlara öyrənməyi sevməyi öyrədirlər". Məşhur ingilis pedaqoqu Robert John Meehanın bu fikri biz müəllimlər üçün çox ibrətamizdir. Fəal təlimdə istifadə olunan təlim üsulları qarşımızda duran şərəfli vəzifələrin yerinə yetirilməsinə şərait yaradır. Öz təcrübəmə əsasən qeyd edə bilərəm ki, bəzi sadə üsullar belə yüksək nəticələr almağa, şagirdlərdə öyrənməyə maraq, həvəs yaratmağa yaxşı təsir edir. Məsələn, dərslikdə verilmiş hər hansısa bir mövzu haqqında təqdimatlar hazırlamaq, hətta ən zəif uşaqları belə fəallaşdırır. Belə olanda məktəblilər ən yaxşı təqdimatı hazırlamağa çalışır və bununla da şagirdlərin araşdırmaçılıq, yaradıcılıq və s. qabiliyyətləri də inkişaf etmiş olur.

**Şagirdlərin öyrənməyi öyrənmək üçün bacarıqlarının formalaşdırılması:**

- Şagirdlərə öz öyrənmələrini başa düşmələrinə və öyrənməyi öyrənməyə uyğun strategiyaların hazırlanmasına kömək etmək.
- Şagirdlərin həmyaşıdları və özünüqiymətləndirmə bacarıqlarının formalaşdırılması.
- Tədris və öyrənmə prosesinə diqqət yetirmək və şagirdləri bu prosesə fəal şəkildə cəlb etmək.

Bununla yeni anlayışları sadəcə mənimsəmək yerinə, yeni ideyaları da geniş kontekstdə istifadə etməyi və öz fikirlərini mühakimə etməyi öyrənirlər. Müəllimlər üçün qiymətləndirmənin əsas vasitəsi formativ qiymətləndirmədir. Formativ qiymətləndirmə öyrənənlərə mövzunu öyrədərkən onlara verilən məlumatlandırıcı rəydir və sözlərlə ifadə olunur, burada şagirdlər qiymət almaq xatirinə deyil bacarmaq xatirinə oxuyur. Formativ qiymətləndirmə məktəb daxili qiymətləndirmənin mahiyyətini təşkil edir. Bu qiymətləndirmə vasitəsilə şagirddən şifahi yaxud yazılı cavab alıb, onun təlim səviyyəsini müəyyənləşdirmək, onu daha da irəli aparmaq mümkündür.

Formativ qiymətləndirmə, əsasən, bu suallara cavab tapır:

- Şagirdin hədəfi nədir, yəni şagird nəyi öyrənəcək?
- Şagirdin mövcud vəziyyəti necədir, yəni hal-hazırda öyrənməli olduğu məsələdən nə qədər xəbərdardır?
- Şagird məqsədinə necə çata bilər, yəni nəyi etməlidir ki hədəfə çatsın? (3, s. 141)

Təhsilalanların bilik və bacarıqlarının səviyyələri müxtəlif olur. Hər bir şagird öz maraq dairəsindən asılı olaraq müəllim tərəfindən izah olunan mövzunu müxtəlif cür qavrayır və tətbiq etməyə çalışır. Mövzunu düzgün qavramayan şagirdin isə həvəsi azalır və oxumaq istəmir. Yeni qiymətləndirmə metodları və fərdi yanaşma ilə artıq bu problemi həll etmək mümkündür. Bununla, həm tədrisin keyfiyyəti yüksəlir, həm də şagirdlərin yalnız biliyi deyil, onla-

rın dünyagörüşünü də inkişaf edir. Formativ qiymətləndirmə vasitəsilə müəllim hər bir şagird ilə fərdi şəkildə işləmək imkanı qazanır. Lakin bunun üçün müəllim əvvəlcədən nəzərində plan tutmalı, müxtəlif səmərəli üsul və vasitələrdən istifadə etməyi bacarmalıdır. Yoxlama nəticəsində şagirdlərin keçmiş materialı necə mənimsədikləri, hansı səhvləri buraxdıqları, növbəti dərslərdə ortaya çıxan problemlərin həllini formativ qiymətləndirmənin nəticələri əsasında şagird nailiyyətini müəyyənləşdirmək olar. Formativ qiymətləndirmənin nəticəsi jurnala yazılmamasına baxmayaraq, onun nəticəsi şagirdin gündəlik fəaliyyəti və gələcək nailiyyəti üçün olduqca vacibdir. Qiymətləndirmə zamanı müəllim də öz işində düzəlişlər etməlidir. Çünki, çox vaxt şagird müəllimi qeyri-obyektivlikdə günahlandırır. Ona görə də müəllim və şagirdlər öz fəaliyyətlərini planlaşdırmağı bacarmalıdırlar. Müəllim təlimin nəticələrini təhlil etməli, buraxılan nöqsanları aşkar etməli və alınmış nəticənin qarşıya qoyulmuş məqsədlə uyğun olub-olmamasını müəyyən etməlidir. Şagird də verilən qiymətlərin onun fəaliyyətinin nəticəsi olduğunu anlamalıdır.

Qiymətləndirmə ilk növbədə uşaqda müsbət emosiyalar yaratmalıdır. Fəal (interaktiv) təlimdə müəllim ən çox şagirdin səhvlərini deyil, nailiyyətlərini vurğulamalı, cəzadan çox dəstək verməyə arxalanmalıdır. Qiymətləndirmə “Səhv cavablar olmur, sadəcə onlar müxtəlif olur” prinsipi əsasında qurulur. Çox vacibdir ki, müəllim səhv cavabda “Sən düz demirsən” əvəzinə “Bir daha fikirləş, bu maraqlı fikirdir, lakin sualımız başqadır” kimi əks-əlaqə yaratsın. Cəzalandırmağa gəldikdə isə, müəllim çalışmalıdır ki, aqressiv cəzanın əvəzinə şagirdə həm özünün, həm də sinfin münasibətini çatdırsın və bununla onda müsbət münasibət qazanmaq ehtiyacını canlandırsın (4, s. 31).

Formativ qiymətləndirməni digər qiymətləndirmə növlərindən fərqləndirən əsas cəhət ondadır ki, müəllim hər bir şagirdlə fərdi şəkildə işləyir və onun mənimsəmə səviyyəsini daim nəzarət altında saxlayır. Biz formativ qiymətləndirmə zamanı aşağıdakı vasitələrdən istifadə edə bilərik.

- Sual-cavab
- Müşahidə
- BİBÖ və ya digər qrafiklər
- Özünüqiymətəndirmə və yoldaş qiymətləndirməsi
- Rubriklər

İndi isə bunlardan bir neçəsinə nəzər salaq:

Müəllimin şagirdlərə ünvanladığı suallar açıq və qapalı olmaqla 2 yerə ayrılır. Qapalı suallar bir cavabı olan suallardır. Açıq suallar isə şagirdləri düşünməyə sövq edir və onların fikirlərini formalaşdırmaqla diqqətlərinin dərsə cəlb olunmasını təmin edir.

Ümumtəhsil məktəblərində müşahidə formal və qeyri-formal şəkildə keçirilə bilər. Formal müşahidə əsasən müəyyən müşahidə vasitələrindən istifadə etməklə həyata keçirilir. Müəllim şagirdlərin fəaliyyətini əvvəlcədən müəyyən edilmiş meyarlarla müqayisə edir. Qeyri-formal müşahidə isə təlim prosesi zamanı həyata keçirilir. Bu tip müşahidə hər gün dərsdə aparıla bilər.

Sinifdə qiymətləndirməni yalnız müəllim aparmır, belə ki, şagirdlər də, həm özlərini, həm də yoldaşlarını qiymətləndirə bilər. Özünüqiymətləndrimə zamanı şagirdlər öz daxili aləmləri ilə dialoq halında olurlar. Yoldaşlarını qiymətləndirmədə məqsəd öyrənmə prosesində şagirdlərin bir-birinə kömək etməsidir. Bu zaman müəllimlər bəzən yoldaşını qiymətləndirmədə şagirdlərin obyektiv olmayacağından narahat ola bilirlər. Məsələn, dost olan şagirdlər bir- birinin fəaliyyətini yüksək qiymətləndirə, arası yaxşı olmayan yoldaşlarını isə haqsız qiymətləndirə bilər. Bunun qarşısını almaq üçün müəllim bir neçə təklif irəli sürə bilər. Belə ki, yol-

daşının fəaliyyətində bəyəndiyin şeyi qeyd et, yaxud sənə maraqlı olan bir şey haqqında soruş və s. Yoldaş qiymətləndirməsi adətən qrup və layihə işləri zamanı həyata keçirilir. Çünki, bu zaman artıq şagirdlər bir-birinin fəaliyyətini müşahidə etmə imkanı qazanırlar. Rubriklər dedikdə isə biz qiymətləndirmə aparmaq üçün xüsusi meyarları olan və bələdçi rolunu oynayan qiymətləndirmə cədvəli nəzərdə tuturuq. Burada əsas məqsəd şagird fəaliyyətini qiymətləndirməkdir. Rubriklər 3 əsas hissədən ibarətdir:

1. Meyarlar
2. Keyfiyyət səviyyəsi
3. Meyarlara müvafiq keyfiyyət səviyyələrinin təsviri

Məsələn, "Ümumi tarix" 10-cu sinif dərsliyində "Şərqə doğru səlib yürüşləri. Avropada şəhərlərin inkişafı" mövzusunda şagirdlərin formativ qiymətləndirilməsini təşkil edək.

Bu mövzu üzrə alt standartlar:

1.1.1. Asılı və müstəmləkə xalqlarının milli azadlıq hərəkatını tarixi zamanla əlaqədə dəyərləndirir.

2.1.1. Müxtəlif tarixi dövrlərdə ölkələrin və xalqların sosial-iqtisadi və mədəni həyatında baş verən dəyişiklikləri məkan baxımından qiymətləndirir (5, s. 103).

Bu standartlara uyğun aşağıdakı meyarları müəyyən edirik.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Şagird səlib yürüşlərinin gedişini xəritə üzrə göstərməyi bacarır. | Şagird səlib yürüşlərini xəritədə göstərir və illərini ayırmağı bacarır. | Şagird səlib yürüşlərini xəritədə göstərir, illərini ayırır və müəllimin köməyi ilə səbəb-nəticə əlaqələrini göstərir. | Şagird səlib yürüşlərini xəritədə göstərir, illəri ayırır və səbəb-nəticə əlaqələrini müstəqil şərh edir. |

I səviyyədə öyrənənlərdə məkan anlayışını, II səviyyədə, həm məkan, həm də zaman anlayışını formalaşdırmağa çalışdığımız üçün meyarı ona uyğun müəyyən etmişik. III səviyyədə isə öyrənənlərdə məkan, zaman anlayışı ilə yanaşı şagird müstəqilliyinin inkişafı, IV səviyyədə isə məkan, zaman, şəxsiyyət anlayışı eyni zamanda məntiqi düşünmə bacarıqlarının inkişaf etməsini istədiyimiz üçün meyarı ona uyğun müəyyən etmişik. Dərs prosesi sonunda bu meyarlar əsasında şagirdlərin formativ qiymətləndirilməsini həyata keçirə bilərik.

Sözsüz ki, təhsil alanların savadlı və yüksək səviyyəli dünyagörüşünə malik olması birbaşa təhsil verəndən asılıdır. Müasir dövrün müəlliminin isə mütəmadi olaraq biliklərini artırması zamanın əsas tələbidir. Çünki, hazırda elm və təhsil sahəsində yeniliklər surətlə dəyişdiyindən müəllimlərin daha çevik və dinamik olması zəruridir.

**Məqalənin aktuallığı.** Formativ qiymətləndimə, həm şagird, həm də müəllim üçün olduqca vacibdir. Bununla şagird daha yaxşı nailiyyətlər əldə etmək imkanı qazanır, müəllimə isə imkan yaranır ki, şagirdlərin təlim ehtiyaclarını öyrənsin və onların təlim sahəsində irəliləyişlərini izləsin. Məqalə də bu kimi zəruri bir mövzuya həsr edildiyindən onu aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Məqalədə ümumtəhsil məktəblərində formativ qiymətləndirmədən istifadə və onun mahiyyəti şərh olunmuş, nəzəri əsasları tədqiq edilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə əldə olunan nəticələrdən orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının ümumtəhsil sistemində Qiymətləndirmə Konsepsiyası. Bakı, 2009.
2. Assessment for Learning Formative Assessment. OECD/CERI International Conference «Learning in the 21st Century: Research, Innovation and Policy», 2008.
3. İ.Həsənov A.Rüstəmova N.Babayeva. Kurikulum, metodika, pedaqogika. Bakı, "Mücrü" nəşriyyatı, 2020, 141 s.
4. Z.Veyisova. Fəal/İnteraktiv təlim. Müəllimər üçün vəsait: UNİCEF. Bakı, 2007, 31 s.
5. Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün "Ümumi tarix" fənni üzrə dərsliyin metodik vəsaiti. Bakı, Şərq-Qərb, 2017, 103 s.

**Г.Р. Марданова**

## Использование формативного оценивания на уроках общей истории как средства стимулирования учебной деятельности учащихся (по материалам X класса)

## Резюме

В данной статье проанализированы основные вопросы более эффективного и качественного проведения формативного оценивания. Этот процесс учитывает специфику деятельности учителя и ученика. В статье приведены примеры стратегий, методов и приемов формирующего оценивания. Выявлены средства для их правильного выбора и планирование.

**G.R. Mardanova**

## The use of formative assessment in general history lessons as a means of stimulating students' learning activities (based on X grade materials)

## Summary

This article analyzes the main issues of more effective and qualitative implementation of formative assessment. In this process, especially the characteristics of teacher and student activities are taken into account. It is noted that this assessment is used to track students ' level of knowledge, to create the necessary conditions for us to study their learning needs, to develop students' self-assessment skills.

**Redaksiyaya daxil olub:** 26.04.2022